# Sualtı "yaşıl dəhliz" tezliklə gerçəkləşəcək

## *Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi üzrə nazirlər görüşünün prioritetləri müəyyən edilib*

**Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizinin iştirakçı ölkələri Bakıda mart ayının əvvəlində keçirilməsi planlaşdırılan nazirlər görüşündən əvvəl həll edilməli olan əsas prioritetləri müəyyənləşdirib. Bununla bağlı müvafiq qərar "Yaşıl Enerji Dəhlizi" birgə müəssisəsinin işçi qrupunun iclasında energetika nazirlərinin müavinləri tərəfindən qəbul ediliblər.**

Toplantıda Qara dəniz kabeli və Mərkəzi Asiya–Azərbaycan Trans-Xəzər yaşıl enerji kabeli layihələri arasında potensial sinerji məsələləri müzakirə edilib.



Görüşün sonunda gələcək fəaliyyətin əsas istiqamətləri və prioritet vəzifələr müəyyən edilib. Qara dəniz enerji dəhlizi üzrə nazirlər görüşü Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü görüşü zamanı keçiriləcək.

2022-ci ildə Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalanıb. Bu sənəd Avropaya "yaşıl enerji" dəhlizinin yaradılması yolunda mühüm addım olub. Xəzər–Qara dəniz–Avropa "yaşıl" dəhlizi layihəsi üzrə birgə müəssisənin yaradılması haqqında Anlaşma Memorandumu isə 2023-cü il iyulun 25-də Gürcüstan, Macarıstan, Rumıniya və Azərbaycan arasında imzalanıb.

Xatırladaq ki, Qara dəniz sualtı kabel layihəsi Gürcüstan və Rumıniyanı birbaşa birləşdirəcək və Cənubi Qafqaz və Cənub-Şərqi Avropanın enerji sistemlərini bir-birinə bağlayacaq ən böyük infrastruktur layihəsidir. Sualtı kabelin uzunluğu 1155 kilometrdən çox olacaq (1115 kilometr suyun altında və 40 kilometr quruda), gərginliyi 525 kilovolt, gücü isə 1300 meqavat olacaq. Qara dəniz vasitəsilə sualtı elektrik kabelinin tikintisinin 2032-ci ildə başa çatması planlaşdırılır.

2025-ci il aprelin 4-də Azərbaycan, Qazaxıstan və Özbəkistan Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankının dəstəyi ilə "Xəzər yaşıl enerji dəhlizi" təşəbbüsünün birinci mərhələsinin başlanması barədə razılığa gəlinib. Tərəflər 3 ölkənin enerji sistemlərinin inteqrasiyasını və Avropaya bərpaolunan enerji tədarükü marşrutunun yaradılmasını nəzərdə tutan layihənin texniki-iqtisadi əsaslandırmasının hazırlanmasına dair əməkdaşlıq sazişi imzalayıblar. Bu təşəbbüs üç ölkənin liderlərinin 2024-cü ilin noyabrında COP29 çərçivəsində imzaladıqları "yaşıl enerji" sahəsində strateji tərəfdaşlıq haqqında sazişin davamı olub.

Bir məqamı da qeyd edək ki, ölkəmizin günəş enerjisi sahəsində böyük potensiala malik olan Qazaxıstan və Özbəkistanla əməkdaşlıq çərçivəsində yaratdığı Mərkəzi Asiya–Azərbaycan enerji dəhlizi gələcəkdə Xəzər–Qara dəniz dəhlizi ilə əlaqələndirilə bilər. Bu isə Mərkəzi Asiyanın böyük regionlarının iki dəniz vasitəsilə Avropa ilə birləşdirilməsini təmin edəcək.

***XQ***

Xalq qəzeti .- 2026.- 24 yanvar (№14).- S.10.